# "Atamın əlləri" nə məktub

**Söz bir qapıdır. Bu qapıdan keçmək üçün qapını döymək lazım deyil. Döyülməklə açılmır bu qapı, duyumla duyğuyla açılır. Duyğusu, duyumu olmayanın bu qapıda işi yoxdur. Dünya yaranandan bəri sözlər qapıların, qapılar sözlərin alın yazısıdır. Əlbəttə, bəsirət anlamında.**

İnsan ömrü də söz kimi bir qapıdır. Zaman-zaman, fəsil-fəsil açılır, gah sevincin, gah kədərin, dərdin üzünə...

Hər bir bədii kitab müəllifin duyğu və düşüncələrinin ədəbi müstəvidə inikasıdır. Bu yaxınlarda "Yazıçı" nəşriyyatında işıq üzü görmüş "Adını sən seç..." poetik toplusu istedadlı şair Sabir Abidinin oxucularla növbəti görüşüdür. Bəllidir ki, şair, nəinki kitabdan-kitaba, əslində, şeirdən-şeirə öz yaradıcılıq dünyasının sərhədlərini, bədii düşüncəsinin üfüqlərini genişləndirməli və yeni poetik ovqatı ilə oxucu marağını qazanmalıdır. Poetik topluların başqa bədii kitablardan fərqli cəhətləri də var. Ən başlıca və diqqətçəkən məziyyət odur ki, bircə şeirlə də müəllifin poetik gücünü, təfəkkürünün zənginliyini, ədəbi-bədii iqtidarını görmək mümkündür. Bəzən bir şeir bütöv bir yaradıcılığın, bir şair taleyinin poetik indeksinə çevrilir və müəllifə sənətkar etiketi qazandırır. Çağdaş poeziyamızın uğuru kimi səciyələnə bilən "Atamın əlləri" şeiri kimi...

**Atamın əlləri**
**sərilib göy üzünə...**
**Başımın üstündə**
**bir haraydı, bir haydı...**
**Atamın əlləri**
**qabar-qabar**
**Çat bağlamış daş kimidi.**
**Atamın əlləri**
**saxlar göy üzündə**
**buludları**
**sıxar ovcuna.**
**O buludlar bir sığal idi,**
**İndi də bir nağıldı**
**Atamın əlləri,**
**İndi də bir heykəldi,**
**bir dəlidi,**
**Tanrının bir cüt əlidi.**
**Tanrım**
**qoy,öpüb oxşasın**
**O əlləri**
**öz əlləri kimi...**

Tutduğu mövqeydən, qazandığı titullardan, fəxri adlardan asılı olmayaraq, hər bir şair şeirindən, misrasından boylanır. Şeirin bədii səviyyəsini ifadə edən elementlər sırasında başlıca məharət müəllifin qələmə aldığı mövzuya yanaşmada öz poetik baxışını, məxsusi düşüncəsini sərgiləyə bilməsidir. Digər ədəbi janrlar kimi şeirdə də bədii ümumiləşdirmə səriştəsi şair yetkinliyinin, dolğun əsərlər yaratmaq bacarığının əyani təzahürüdür. Mahiyyət etibarı ilə ədəbiyyatda bütün mövzular işlənmişdir. Lakin istedadlı qələm sahibləri, "köhnə" mövzulara da öz poetik nəfəsi ilə yeni ruh verə bilir. Məhz poetik ruhun canlılığı, təravəti şairin özünəməxsusluğunu şərtləndirən amillər sırasındadır.

"Adını sən seç..." kitabına toplanmış poetik nümunələr istedadlı şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir. Sabir Abdinin şair kimi fərdi yaradıcılıq manerasını səciyyələndirən önəmli xüsusiyyət onun vətəndaşlıq qayəsinin səmimiliyi və dolğunluğudur. Şairin müxtəlif mövzularda yazılan şeirlərini səmimi ovqat, poetik özünüifadə bacarığı, həyat hadisələrinə fəlsəfi baxış, yurdsevərlik duyğuları, saf sevgi hissləri birləşdirir.

Sabir Abdinin ədəbi uğrunu şərtləndirən cəhətlərdən biri də qələmə aldığı mövzuların mahiyyətinə dərindən vara bilməsi, gördüyü problemlərin səbəbini sənətkar kimi araşdırmasıdır. Milli-mənəvi dəyərlərimizə bağlılığı, milli özünüdərk mövzularına daha dərindən vaqif olması diqqətdən yayınmır. Onun şeirlərində yalnız milli-mənəvi ağrılarımız göstərilmir, həm də bu bəlaları doğuran səbəblər poetik boyalarla bədii sənət güzgüsündə işıqlandırılır.

**Çoxu dilənçidi**
**Bu dünyada**
**Biri pul,**
**Biri çörək,**
**Biri də sevgi dilənir.**
**Biri yaşamağa**
**Soyuq bir daxma,**
**Biri imarət,**
**Biri də şəhər dilənir.**
**Biri də dolanmağa bir iş**
**Biri vəzifə,**
**Kreslo, kürsü...**




**Biri də özünə hörmət,**
**Ya da nifrət dilənir...**
**Biri də müharibə**
**Qan-qada**
**Biri də sülh,**
**Barışıq,**
**O biri ölüm**
**Ya da olum, işıq**
**Dilənir,**
**Dilənir çoxu dilənir...**

S.Abdinin poetik nümunələrində insan, təbiət və zamanla bağlı fikir və düşüncələr təqdim olunan mahiyyətin tərkib hissəsi kimi üzə çıxır.

**De görüm, o odum, alovum hanı?**
**Üşüyən əllərim yumağa dönüb.**
**Gəzir saçlarımda payız dumanı,**
**Kirpiyin sırsıra, baxışım donub.**

**Üzümə bağlıdı açıq qapılar,**
**Köhnə qapılarınm cəftəsi paslı.**
**Kim bilir, bəlkə də itib açarı,**
**Qıfılı qapıda qalıb asılı.**

Kitabdakı şeirlərin önəmli cəhətlərindən biri də insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadə olunmasıdır. Şairin poetik ovqatını orijinal bədii detallarla sərgiləyən gözəl nümunələrdən biri də "Payızlamışam" şeiridir. Bədii siqlət, poetik təravət və səmimi özünüifadə ustalığı bu şeirin alın yazısıdır.

**Dolmuşam, yamanca payızlamışam,**
**Xəzəllər üstünə xəzəllər yağır.**
**Kirpiyin üstündə bir damla yaşam,**
**Mənə təzə ad qoy**
**"Ay Payız" çağır.**

**Sonuncu ümid də "əlvida" deyir,**
**Ömür su üstünə yazılan yazı.**
**Daha əllərin də əlimdə deyil,**
**Yollarım qarışıb, fikrim də azıb.**

**Sərgərdan küləkdən yarpaqlar uçur,**
**Xəzəl pıçıltısı qərib bir səsdi.**
**Bu dərddən mən çoxdan çıxıb gedərdim,**
**Gedərdim, bu payız yolumu kəsdi.**

Sabir Abdinin yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada səmimilkdir və bu səmimilkdə bədii zənginlik və müdriklik mövcuddur. Bununla yanaşı şeirlərinin məzini təşkil edən ahəngdarlıq və poetik ictimai məna sənətkarlıq xüsusiyyəti kimi önəmli yaradıcılıq səciyyəsi daşıyır. Səmimi ovqat, ahəngdarlıq və bədii intenasiyanın harmoniyası Sabirin şeirlərinə musiqi ritmi, nəğmə təravəti gətirir. Təsadüfi deyil ki, kitabdakı bir çox poetik nümunəyə tanınmış bəstəkarlar mahnılar bəstələyib.

Bəllidir ki, bəddi sənətin gücü böyük ideyanın, dəyərli fikirin obrazlı təcəsümündə səmimi və təravətli ehtivasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii sözün məna çalarlarından, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı sənət qarşısında məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu xüsusiyyətlər Sabir Abdinin yaradıcılığında öz əksini tapıb.

**"Adını sən seç..." şeirlər toplusunu şairin ədəbi uğuru, yaradıcılıq nailiyyəti kimi dəyərləndirmək olar.**

**Balayar Sadiq**